# Daha iki Vətən müharibəsi qazisi yüksək texnologiyalı protezlərlə təmin edilib





Prezident İlham Əliyevin tapşırığı əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən müharibəsi qazilərinin son nəsil müasir protezlərlə təminatı işləri davam etdirilir.

Nazirlik Vətən müharibəsinin daha iki iştirakçısını - Mingəçevir şəhər sakini Abdulla Abdullayevi və Qazax rayon sakini Abbas Yusifovu yüksək texnologiyalı protezlərlə təmin edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onlar Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində ilkin hazırlıq mərhələsi keçdikdən sonra ən müasir reabilitasiya vasitələri ilə təmin ediliblər.

A.Abdullayev Ağdam rayonu uğrunda döyüşlərdə ağır yaralanaraq hər iki ayağını itirib. Dövlət başçısının Sərəncamları ilə o, “Cəsur döyüşçü” və “Ağdamın işğaldan azad olunmasına görə” medalları ilə təltif edilib.

A.Yusifov isə Suqovuşan, Talış istiqamətində gedən döyüşlərdə ağır yaralanaraq sol ayağını itirib. O, Prezident İlham Əliyevin Sərəncamları ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenivə “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilib. Hər iki qaziyə əlilliyə görə aylıq sosial ödənişlər təyin edilib.

Nazirlik ötən ilin dekabrından qazilərin yüksək texnologiyalı protezlərlə təminatına başlayıb və artıq 140-dan çox hərbçi ən müasir protezlərlə təmin olunub və bu proses davam edir.

Azərbaycan.- 2021.- 4 sentyabr.- S.4.